# Əsərləri

## Kitablar

### 2021

**İmamverdiyev, İlqar.** Aşıq Ələsgərin poetik və musiqi dünyası: Aşıq Ələsgər-200 /İlqar İmamverdiyev; ön söz və elmi red. Babək Qurbanov.- [Bakı]: İrşad Nəşriyyat Evi.- 2021.- 662 s.

Kitab Türk dünyasının böyük saz-söz ustadı Dədə Ələsgərin 200 illik yubileyinə həsr olunmuşdur. Kitabda Azərbaycanın Xalq Şairi Osman Sarıvəllinin Aşıq Ələsgərin 150 illiyi ilə bağlı yazmış olduğu "Qüdrətli şair, ustad sənətkar" adlı tədqiqat əsəri ilə yanaşı, sənətşünaslıq doktoru, Professor İlqar Cəmil oğlu İmamverdiyevin bu əlamətdar yubiley münasibəti ilə nota yazmış olduğu Azərbaycanın ənənvi 200 adda klassik saz havaları daxil edilmişdir. Kitab Azırbaycan xalq yaradıcılığı və aşıq sənəti ilə məşğul olan mütəxəssislər, ədəbiyyatsevərlər, folklorşünaslar, eləcə də Bakı Musiqi Akademiyasında, Azərbaycan Milli Konservatoriyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Orta-ixtisas Musiqi Kollecində və Musiqi litseylərində saz tədrisi ilə xidmət göstərən pedaqoqlar, tələbələr, bəstəkarlar habelə, Azərbaycan milli musiqi irsinə maraq göstərən yerli və yabançı musiqişünaslar üçün nəzərdə tutulmuşdur.

### 2020

**Lirika** [Mətn].- Bakı: "Zərdabi nəşr" MMC, 2020. - 184 s.: 19 sm.

Görkəmli saz-söz sənətkarı, haqq aşığı Dədə Ələsgərin (1821-1926) iki yüz illiyi ərəfəsində Azərbaycan Aşıqlar Birliyinin hazırladığı bu kitab böyük söz ustadının zəngin poetik irsində önnəmli yer tutan  lirik şeirlərini çevrələyir. Toplu Aşıq Ələsgər irsinin toplanması və nəşrində əvəzsiz xidmətləri olan H. Əlizadə, M.H. Təhmasib və İ. Ələsgərin hazırladıqları kitablar, eləcə də ustad aşıqların repertuarı əsasında hazırlanmışdır. Kitab saz-söz ictimaiyyəti və aşıq sənətinin tədeisi ilə məşğul olan ixtisas məktəbləri üçün nəzərdə tutulur. İlk dəfə olaraq bu topluda  sözügedən şeirlərin hansı aşıq havası üstə oxuna bilməsi barədə də örnəklər verilir.

### 2014

**Bütün əsərləri** [Mətn] /Aşıq Ələsgər ; tərt. ed. və red. Q. Zimistanoğlu.- Bakı: [OL], 2014. - 486, [1] s., [8] v. portr., fotoşək., faks.: portr., 21 sm.

Kitabda aşıq sənətinin qüsdrətli nümayəndəsi olan ustad Aşıq Ələsgərin bütün şeirləri və dastan-rəvayətləri toplanmışdır.

İçindəkilər: Qoşmalar; Bağlamalar; Müxəməslər; Deyişmə və bənzətmələr; Müstəzad qoşma; Qəzəl; Dildönməz; Qoşayarpaq; Divanilər; Dodaqdəyəz divanilər; Təcnislər; Dodaqdəyməz təcnislər; Cığalı təcnislər; Dodaqdəyməz cığalı təcnis; Müstəzad təcnis; Aşıq Ələsgər haqqında deyilmiş şeirlər; Dastan-rəvayətlər: Ələsgərnən Səhnəbanı; Aşıq Ələsgərnən Dəli Alı; Həcər xanım ; Anaxanımın küsməyi; Aşıq Ələsgərin Qarabağa toy səfəri; Şair Nağı; Aşıq Ələsgərlə Aşıq Hüseyn; Aşıq Ələsgərin Naxçıvan səfəri; Maraqlı və zəngin muzey.

**"Can" deməklə candan can əskik olmaz...** [Mətn]: şeirlər /Ələsgər. - Bakı: [Kitab Klubu], 2014. - 318, [2] s.: 20 sm.

Kitaba Azərbaycan saz, söz sənətinin böyük nümayəndəsi, təbiət aşiqi, gözəllik nəğməkarı Aşıq Ələsgərin qoşmaları, təcnisləri, divanları, müxəmməsləri, gəraylıları, bağlamaları, həcvləri, deyişmələri, qəzəlləri və mərsiyələri daxil edilmişdir.

**2011**

**Aşıq Ələsgərin hikmət dünyası** [Mətn] /Azərbaycan Aşıqlar Birliyi ; tərt. ed. İ. Ələsgər, məsləhətçi: Z. Yaqub ; red. M. Nəbioğlu.- Bakı: Elm və təhsil, 2011.- 30, [2] s.

**2010**

**Ələsgərnən Səhnəbanı; Aşıq Ələsgərin Türkiyə səfəri; Aşıq Ələsgər qarabağlıların yaylağında; Aşıq Ələsgərin Qaraqoyunlu səfəri; Aşıq Ələsgərin Dəli Alının toyuna gəlməsi; Aşıq Ələsgər Yanaqda; Aşıq Ələsgərlə Həcər xanım; Aşıq Ələsgərnən Aşıx Nəsivin qavaxlaşması; Aşıq Ələsgərnən şəmkirli Aşıq Hüseynin görüşü; Aşıq Ələsgərnən Mir Məcid ağanın görüşü; Aşıq Ələsgərnən şair Nağı; Anaxanımın küsməyi; Aşıq Ələsgərin Qarabağ səfəri; Aşıq Ələsgərin İrəvan səfəri; Aşıq Ələsgər Kəlbəcərin Qılışdı kəndində** / Aşıq Ələgər //Azərbaycan folkloru külliyyatı [Mətn] /red. hey. H. İsmayılov və b.; tərt. H. İsmayılov, Ə. Ələkbərli; nəşrə məsul. Ə. Ələkbərli; AMEA, Folklor İn-tu. - Bakı: Nurlan, 2010. - C. XVIII.- K.8. - Dastanlar. - S.3-240.

**2009**

**El bilir ki, sən mənimsən...** [Mətn]: [şeirlər] /tərt. ed. və red. Ç. Mustafa.- Bakı: Təhsil, 2009.- 70, [2] s.: şək., 22 sm.- (Məktəb kitabxanası)

Bu kitabda toplanan şeir nümunələrində Ulu Tanrımızın bizə bəxş etdiyi gözəl Vətənimiz - şəhərlərimiz, kəndlərimiz, min bir rəngə çalan təbiətimiz, üçrəngli bayrağımız vəsf olunur.

Kitaba Aşıq Ələsgərin **"Dağlar" və "Yaylaq"** şeirləri də daxil edilmişdir.

**Molla Cuma ilə Aşıq Ələsgərin deyişməsi** //Azərbaycan folkloru antologiyası [Mətn] /AMEA, Filklor İn-tu; toplayanı, tərt. ed., söyləyənlər, toplayıcılar, qaynaqlar haq-da məlumatın, qeyd və şərhlərin müəl. H. Əbdülhəlimov; red. H. İsmayılov; ön söz müəl. F. Çələbi; nəşrə məs. Ə. Ələkbərli. - XVIII kitab: III cild: Şəki folklore. - Bakı: [Nurlan], 2009. - S.392-393.

## 2008

**Bütün əsərləri** [Mətn] /Aşıq Ələsgər ; tərt. Q. Zimistanoğlu ; red. N. Əbdülrəhmanlı.- Bakı: [Qanun], 2008.- 486, [2] s.

## 2007

**Gəraylılar:** Xoş gəldin, Ceyran; **Qoşmalar:** Dəyməmiş, Düşərsən, Dağlar, Gərəkdi, Sarıköynək, Görmədim; **Təcnislər:** Ayağa Qarqar, Ay üzə üzə, Narın üz, Həmayıl eylə /Aşıq Ələsgər //Aşıq şeiri [Mətn] /tərt. M. Qasımlı ; rəssam Ş. Rüstəmova.- Bakı: Altun kitab, 2007.- S.56-68.- (Şifahi xalq ədəbiyyatı; Məktəblinin kitabxanası).

## 2005

**Aşıq Ələsgər ilə deyişmə** / Şəmkirli Aşıq Hüseyn //Azərbaycan aşıq şerindən seçmələr [Mətn] : iki cilddə /tərt. ed.: Ə. Axundov, İ. Abbaslı, H. İsmayılov ; [buraxıl. məsul Ə. Güləliyev ; tərtibatçı-rəssam N. Əliyeva].- Bakı: Şərq-Qərb, 2005.- C.1.- S. 351-352.

**Gəraylılar; Qoşmalar; Təcnislər; Divanilər; Müxəmməslər** /Aşıq Ələsgər. **//Azərbaycan aşıq şerindən seçmələr** [Mətn] : iki cilddə /tərt. ed.: Ə. Axundov, İ. Abbaslı, H. İsmayılov ; [buraxıl. məsul Ə. Güləliyev ; tərtibatçı-rəssam N. Əliyeva].- C. 2.- Bakı: Şərq-Qərb, 2005.- S.4-35.- (Ədəbiyyat antologiyaları).

**Varıymış; Qaldı ki, qaldı; Qalmadı; Dünyada; Gərəkdir; Görmədim; Dağlar; Dünyada; Eylər; Çıxıbdı** /Aşıq Ələsgər //Azərbaycan uşaq ədəbiyyatı antologiyası [Mətn] : üç cilddə /tərt. ed Q. Namazov ; red. T. Əhmədov ; [buraxıl. məsul Ə. Güləliyev ; tərtibatçı-rəssam N. Əliyeva]

Cild 1: XX əsrə qədərki uşaq şeri.- Bakı: Öndər, 2005.- S.194-200.- (Ədəbiyyat antologiyası).

**2004**

**Aşıx Ələsgərnən aşıx Nəsivin qavaxlaşması** //Aşıq Nəsib [Mətn] /Toplayıb tərtib edənlər. H.İsmayılov, T.Qurbanov; Red. və ön sözün müəllifi: H İsmayılov: Nəşrinə məsul: Ə.Ələkbərli; AMEA Folklor İnstitutu.- Bakı: Səda, 2004.- S.109-118.

**Əsərləri** [Mətn] /Aşıq Ələsgər ; tərt. ed., ön söz. və qeydlərin müəl. İ. Ələsgər ; [buraxıl. məsul Ə. Güləliyev ; tərtibatçı-rəssam N. Əliyeva].- Bakı: Şərq- Qərb, 2004.- 400 s.- (Klassik Azərbaycan ədəbiyyatı).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub və ölkə kitabxanalarına hədiyyə edilən bu kitaba qüdrətli el sənətkarının əldə olan şeirləri və adı ilə bağlanan dastan-rəvayətlər toplanmışdır. Aşıq Ələsgərin böyüklüyü xalq həyatını, insan taleyini, sevinc və kədər hisslərini necə ifadə etməsindədir.

İçindəkilər: Şeirlər ; Qoşmalar ; Təcnislər ; Divanilər ; Müxəmməslər ; Gəraylılar ; Bağlamalar ; Həcvlər və hərbə-zorbalar ; Deyişmələr ; Qəzəllər ; Dastan-Rəvayətlər.

**Əsərləri:** şeirlər, dastan-rəvayətlər /Aşıq Ələsgər; tərt ed., ön söz İslam Ələsgər; red. Qara Namazov. - Bakı: Çaşıoğlu, 2004. - 488 s.

İçindəkilər: Düşdü, Dağlar, Dönübdü, Gəlibdi, Eylər, Ola, Olmaz, Olar, Öldürür, Salamatdı, Yaşıldı,yaşıl, Ayana, ana, Qoca baxtım, Köpək oğlu.

**Gərəkdi; Düşdü; Dağlar; Dolanır; Çökməyə; Kəsildi; Olacaqdır; Ceyran; Yaylaq; Ayə məndədi; Çataçat (dodaqdəyməz); Baş endirir; Dünyada; Gözələ; Xoş gəldin; Yeridi; Gözəl; Maral** / Aşıq Ələsgər //El çələngi [Mətn] : (xalq şerindən seçmələr) /tərt. ed. Q. Namazov ; [buraxıl. məsul Ə. Güləliyev ; tərtibatçı-rəssam N. Əliyeva].- Bakı: Şərq-Qərb, 2004.- S.186-199.- (Azərbaycan xalq ədəbiyyatı)

**Şeirlər, dastan-rəvayətlər, xatirələr** / Aşıq Ələsgər ; tərt. İ. Ələsgər ; red. Q. M. Namazov. - Bakı : Çaşıoğlu, 2004. - 488 s. ; 24 sm. - (Azərbaycan ədəbiyyatı).

**2003**

**Şeirlər, dastan-rəvayətlər, xatirələr** /Aşıq Ələsgər.- Bakı: Çinar-çap, 2003.- 496 s.

Bu kitabda Aşıq Ələsgərin həyatı ilə bağlı on doqquz xatirə verilmişdir ki, bunlar ulu sənətkarın yaradıcılığını öyrənmək, onun qeyri-adi şəxsiyyətini müəyyənləşdirmək baxımından böyük əhəmiyyətə malikdir.

Aşiq Ələsgərin şagirdlərinin, xüsusən oğlu Aşiq Talıbın bildiyi variant əsasında tərtib edilmiş bu kitabdakı əsərlər ustad aşığın indiyə qədər çap olunan kitablarındakı əsərləri ilə müqayisə edilmiş, daha dəqiq müəyyənləşdirilmişdir. Aşiq Ələsgərin indiyə qədər çap olunan əsərlərinə başqa müəlliflərin əsərlərinin də qarışdığı ehtimalı var idi. Elmi araşdırmaların, dəqiqləşdirmələrin nəticəsi olaraq, belə əsərlərin bir qismi bu kitaba daxil edilməmişdir. Eyni zamanda əvvəlki kitablarda elə şerlər də var ki, ifadə etdiyi fikir və bədii dəyər baxımından ustad aşığın poetik ruhuna o qədər də uyğun gəlmir. Lakin vaxtilə Aşıq Ələsgərin ədəbi irsinin ilk toplayıcısı Hümmət Əlizadə tərəfindən əldə edilən belə şerləri bu kitabda da saxlamaq məqsədəuyğun hesab edilmişdir.

**1999**

**Əsərləri, dastan-rəvayətlər, xatirələr...** / Aşıq Ələsgər ; tərt. İ. Ələsgər ; red. M. P. Qasımlı. - Bakı : Şərq-Qərb, 1999. - 578 s. : il. ; 22 sm.

Aşığın şagirdlərinin, xüsusən oğlu Aşıq Talıbın bildiyi variant əsasında tərtib edilmiş bu kitab çapa hazırlanarkən ustadın indiyə qədər nəşr edilən əsərləri ilə müqayisə olunmuş, daha dəqiq mətn müəyyənləşdirilmişdir. Müqayisə zamanı bəzən bir misranın bir neçə variantı meydana çıxmışdır. Gələcək tədqiqat üçün elmi əhəmiyyətini nəzərə alaraq, bunların böyük bir qismi "Qeydlər" bölməsində özünə yer tapmışdır. Aşığın indiyəqədərki kitablarında başqa müəlliflərin əsərlərinin onun yaradıcılığına qarışdığı ehtimalı var idi. Elmi araşdırmaların, dəqiqləşdirmələrin nəticəsi olaraq, belə şerlərin bir qismi bu kitaba daxil edilməmişdir. Lakin əvvəlki kitablarda elə şerlər də var ki, bunlar ifadə etdiyi fikrə və bədii dəyərinə görə ustadın nəfəsinə yad görünür. Vaxtilə Aşığın ədəbi irsinin ilk toplayıcısı Hümmət Əlizadə tərəfindən əldə edilən belə şeirləri bu kitabda da saxlamaq məsləhət bilinmişdir. Əvvəlkilərin hamısından fərqli olaraq, bu kitabda Aşığın həyatı ilə bağlı iyirmi xatirə verilmişdir ki, bunlar ulu sənətkarı öyrənmək, onun qeyri-adi şəxsiyyətini müəyyənləşdirmək baxımından böyük elmi əhəmiyyətə malikdir.

**Min beş yüz ilin oğuz şeiri** [Mətn]: antologiya /şeirmətnlərinin, müəlliflər və əsərlər haqqında məlumatların, lüğətin tərtibçisi, ön və son sözlərin müəllifi Anar;

red.: Azər Bağırov, Nahad Əliyev; rəs. Zaur Əliyev.- Bakı: Azərbaycan, 1999.- 911s. - (Antologiya "Kitabi-Dədə Qorqud" dastanının1300 illik yubileyinə həsr olunmuşdur).

Kitabın içindəkilərdən: Aşıq Ələsgərlə Aşıq Hüseynin deyişməsi [S.398-399]; Aşıq Ələsgər (1821-1926); Qoşmalar; Qoşayarpaq qoşma; Gəraylılar; Təcnis; Cığalı təcnis; Ayaqlı təcnis; Dodaqdəyməz təcnis; Dildönməz [S.408-419].

**1997**

**Hikmət dünyası.** [Mətn] /Aşıq Ələsgər; tərt. və red. E. İsmayıl.- Bakı: Ağrıdağ, 1997.- 40 s.: portr., 15 sm.

Kitabçada böyük el nəğməkarı, qüdrətli söz sərrafı Aşıq Ələsgərin dillər əzbəri olmuş müdrik kəlamlarından, hikmətli deyimlərindən nümunələr toplanmışdır.

**1993**

**Gözüm bir alagöz xanıma düşdü** [Mətn]: say-seçmə şeirlər /Aşıq Ələsgər; tərt. M. Qaradaşlı; red. F. Rzabəyova.- Bakı: Yazıçı, 1993.- 144 s.

Kitabçada böyük el sənətkarının say-seçmə şerləri toplanıb.

**1991**

**Ələsgər ocağı** [Mətn]: şeirlər /red. Zəlimxan Yaqub; toplayan və tərt. ed. İ. Ələsgər.- Bakı: Yazıçı, 1991.- 304 s.: ill., 17 sm.

Topluda Aşıq Ələsgər ocağının ən istedadlı nümayəndələrinin tanınmış aşıqların və el şairlərinin əsərlərindən seçmələr toplanmışdır.

**Çərşənbə günündə çeşmə başında...** [Mətn] /toplayıb tərt. ed. və ön söz. müəl. İ. Sadıq; rəss. T. Məlik.- Bakı: Azərnəşr, 1999.- 92 s.

Bu kitabda toplanmış şerlər Ələsgər sazının-sözünün sehri ilə yaranmışdır.

**1988**

**Aşıq Ələsgər** [Mətn] /tərt. ed., ön söz. müəl. İ. Ələsgərov.- Bakı: Yazıçı, 1988.- 182, [2] s.

Əvvəlkilərdən fərqli olaraq, bu kitabda şeirlər forma xüsusiyyətinə görə seçilmiş, hansı şeirin rədifi varsa rədifi ilə, rədifi olmayanlar isə birinci misrası ilə adlandırılmış, ilk dəfə olaraq əlifba sırası ilə divan şəklində düzəülmüşdür.

Kitabın içindəkilər: Qoşmalar; Həcvlər və hərbə zorbalar; Bağlamalar; Müstəzad qoşma; Qoşayarpaq; Təcnislər; Dodaqdəyməz təcnislər; Cığalı təcnislər; Dodaqdəyməz cığalı təcnis; Divanilər; Müxəmməslər; Gəraylılar; Qəzəl; Deyişmələr.

**1984**

**Gəraylılar; Qoşmalar; Təcnislər; Divanilər; Müxəmməslər** /Aşıq Ələsgər //Azərbaycan aşıqları və el şairləri [Mətn] : iki kitabda /red. hey. M. H. Təhmasib, İ. İ. Abbasov, B. A. Abdullayev, T . Ə. Fərzəliyev ; tərt. ed. Ə. Axundov ; cildin red. B. Abdullayev, E. Məmmədov.- Seçilmiş şeirlər: iki kitabda.- Bakı: Elm, 1984.- S.6-33.

**1972**

**Əsərləri** [Mətn]: 2 cilddə /Aşıq Ələsgər; topl. İ.Ələsgərov; tərt. ed.: Ə.Axundov, M.Təhmasib; red. H.Araslı; AzSSR EA. Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Elm, 1972.- C.1.- 326 s.

Kitabın içindəkilər: Gəraylılar, gözəlləmə və şikayətnamələr, həcv və hərbə-zorbalar, Müstəzad qoşmalar, dildönməz, qoşayarpaq, təcnislər və divanilər toplanmışdır.

**Əsərləri** [Mətn]: 2 cilddə / Aşıq Ələsgər; topl. İ. Ələsgərov ; tərt. ed. Ə. Axundov, M. H. Təhmasib ; red. H. Araslı; AzSSR EA, Nizami ad. Ədəbiyyat İn-tu ; .- C.2.- Bakı: Elm, 1972.- 326, [2] s.

Kitabın içindəkilər: Dodaqdəyməz divanilər; Deyişmələr; Qəzəl; Aşıq Ələsgər haqqında deyilmiş şeirlər; Dastan-rəvayətlər

**1970**

**Ustadnamə; Yaylaq; Dağlar; Dolanır; Dönübdü; Düşdü; İncimərəm; Gördüm; Dönübdü; Ola; Dünyada; Narın üz; Tez-tez; Bax-bax** / Aşıq Ələsgər //Aşıqlar [Mətn] /tərt. ed. və red. İlyas Tapdıq; rəs. S. Qəmbərov. - Bakı: Gənclik, 1970.- S.47- 58.

**1964**

**Telli saz ustadları** [Mətn] /tərt. ed. Əhliman Axundov; red. M. Təhmasib. - Bakı: Azərnəşr, 1964.- 159 s.

Kitabın içindəkilər: Göyçəli Asıq Ələsgər; Olacaqdı; Yaxşıdı; Yaman at; Görmədim; Ad olmaz; Gərəkdi; Eylər [S.120-127].

**1963**

**Əsərləri [**Mətn] /Aşıq Ələsgər ; topla. İslam Ələsgərov ; tərt. ed. Ə. Axundov, M. H. Təhmasib ; red. H. Araslı ; AzSSR EA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: AzSSR EA, 1963.- 486, [2] s.

Kitabın içindəkilər: Aşıq Ələsgər. Gəraylılar; Qoşmalar; Ustadnamə və şikayətnamələr; Həcv və hərbəzorbalar; Qıfılbəndlər; Deyişmələr; Qoşayarpaq qoşma; Qoşma – müstəzad; Təcnislər; Dildönməz; Divanilər; Qəzəllər; Aşıq Ələsgər haqqında deyilmiş şeirlər; Rəvayətlər; Asıq Ələsgərin həyatı haqqında .

**1960**

**Ustadnamə; Çıxmışdı; Kamil ovçu; A bivəfa; Öldürür; Düşdü; Gördüm; Seçilmiş; Zülflərin; Şirindi; Var; Köynəyinə; Dolanır; Sinəmdə var; Yar salamatdı; Eyləmişəm; Düşdü; Dağlar; Bilməz; Dünyada; Görmədim; Ay üzə-üzə; Ay sinə-sinə; Məndən; Təktək; Bax, bax; Qıj-qıj; Yana-yana; İncimərəm; Xoş gəldin; Bürümə; Ola; Amandı; Güllü** / Aşıq Ələsgər // Aşıqlar [Mətn]: ikinci çapı /tərt. ed. S.Axundov; red. İ.Soltan; Respublika Xalq Yaradıcılığı Evi.- Bakı, 1960.- S. 56-72.

**1957**

**Ustadnamə; Çıxmışdı; Kamil ovçu; Qoymadı; A bivəfa; Öldürür; Düşdü; Gördüm; Seçilmiş; Zülflərin; Şirindi; Var; Köynəyinə; Dolanır; Sinəmdə var; Yar salamatdı; Eyləmişəm; Düşdü; Dağlar; Bilməz; Dünyada; Görmədim; Yeddidi; Düşərsən; Tez-tez; Gəl eyləyək bəhs; Gözələ; Keçdi; Bilmirəm; Niyə döndü; Dəyməmiş; Dönübdü; Danışma; Oldu; Olmaz; Üç şey; Dayanmaz; Ay üzə-üzə; Ay sinə-sinə; Məndən; Tək-tək; Bax, bax; Qıj-qıj; Yana-yana** / Aşıq Ələsgər //Aşıqlar [Mətn] /tərt. ed. S.Axundov; red. H.Araslı; Respublika Xalq Yaradıcılığı Evi.- Bakı, 1957.- S.87-112.

**1956**

**Şeirlər** / Aşıq Ələsgər /topl. tərt. ed. İslam Ələsgərov; müqəddimə Osman Sarıvəlli.- Bakı: Azərnəşr, 1956.- 200 s.

Kitabda Aşıq Ələsgərin qoşmaları, təcnisləri, dodaqdəyməz təcnisləri, cığalı təcnisləri, deyişmələri, deyişmə və gəraylıları toplanmışdır.

**1937**

**Aşıq Ələsgər** [Mətn] /rəss. Ə. Hacızadə.- Bakı: Azərnəşr, 1937.- 263, [6] s.

Kitabda Aşıq Ələsgərin qoşmaları, təçnisləri, gəraylıları, tərifnamələr, həcvlər, müxtəlif parşalar, deyişmələr Aşq Ələsgərə bənzətmələr verilmişdir.

**1935**

**Aşıq Ələsgər** [Mətn] /topl. Hümmət Əlizadə ; red. S. Hüseyn.- Bakı: Azərnəşr, 1935.- 234 s.

**1934**

**Aşıq Ələsgər** [Mətn] : [şeirlər] /topl. Hümmət Əlizadə; tərt. ed. və red. S. Hüseyn.- Bakı: Azərnəşr, 1934.- 181, [2] s.

**1930**

**Şeirlər:** Çərşənbə günündə, çeşmə başında; Ay ariflər gəlin sizə söyləyim; Can deməkdən candan can əksik olmaz; Arif olan gəlin sizə söyləyim; Tovuz kimi qalxıb çeşmə başından; Gedin deyin o gəlinə; Qabiliyyətdə, mərifətdə, camalda; Durum dolanım başına; Can qurban eyləsən layiqdi, layiq; Bir bölük pərilər, pərizadələr; Eşq oduna yanan aşkara yanmaz; Gözəl səndə nə qaydadı; Göz-gözə baxanda məhəbbətnən; Güləbətin qıyı tər sinən üstə /Aşıq Ələsgər //Azərbaycan aşıqları [Mətn] / toplayanı Hümmət Əlizadə.- Bakı: Azərnəşr, 1930. - C.2.- S. 22- 28.

**1929**

**Əsərlərindən nümunələr:** Deyişmə: [Aşıq Ələsgərlə Aşıq Söyünün]; Təcnis; Dağlar; Deyişmə; Təcnis. Təkyarpaq; Dodak dəyməzdən təcnis və ya zərxətayi təcnis; Gözəlləmə; Deyişmə; Gözəlləmə; Deyişmə /Göyçəli Aşıq Ələsgər //Azərbaycan aşıqları [Mətn] /topl. Hümmət Əlizadə [ön söz. A. Şaiq].- I cild.- Bakı: Azərnəşr, 1929.- S.11-31.- (El ədəbiyyatı nümunələri).